***Onsuz da Şah İsmayıl Şiraza doğru hərəkət planından əl çəkməmişdi. İndi biləndə ki, Sultan Murad da özünün xəyanətkar niyyətindən geri çəkilməyib onda səfər hazırlığını bir az da sürətləndirməyi lazım bildi. Beləliklə, Şah İsmayıl Şiraza yaxınlaşanda xalası Məryəmi bir daha yanına çağırdı.***

***- Sənə məlum olduğu kimi Sultan Murad çox ciddi hazırlıq görüb.***

***- Şah, xəbərdaram. - Məryəm xanım bacısı oğluna bir qədər quru və rəsmi müraciət elədi. Sonra nə düşündüsə Sultan Murada olan qəzəbini boğub yenə mülayim tərzdə sözünə davam elədi, - Allah ona ağıl versəydi Ağqoyunlu nəslinin qalanlarını da qırğına verməzdi. Ancaq mənim bir xahişim də var.***

***Şah başını qaldırıb xalasını diqqətlə süzdü. Sanki, üzünün ifadəsi ilə xalasına çatdırmaq istədi ki, o bir daha Sultan Muradın bağışlanmasını xahiş eləməsin. Deyəsən Məryəm xanım da onun niyyətini məqamında anladığından tez dilləndi:***

***- Xeyir, mən Sultan Muradın bağışlanmasını xahiş etmirəm. Çünki o, mənə verdiyi vədə də xilaf çıxıb. Onun haqqında nə tədbir görəcəksənsə bu, sənin öz işindir.***

***-Bəs onda mənim əziz xalamın nə xahişi var? Mən onun xahişini mütləq yerinə yetirərəm, qoy çəkinməsin desin - Şah başa düşürdü ki, Məryəm xanımın Sultan Muraddan qeyri nə xahişi olsa yerinə yetirmək olar. Mehribanlıqla başını qaldırıb xalasının nə deyəcəyini gözlədi.***

***Məryəm xanım şahı öz oğlu kimi süzdü. Onun parlaq gözlərində, nurlu sifətində heç bir qəddarlıq görmədi. Bildi ki, indiki məqamda o şaha nə desə etiraz etməyəcək ona görə də elə həmin mehribanlıqla sözünə davam elədi.***

***- Mənim əzizim, Ağqoyunlu səltənəti nankor varislərin bir-biri ilə didişməsi sayəsində viran qaldı. Təkcə sənin özün yox, atan Şeyx Heydər də bu səltənətin qurulmağında böyük xidmətlər göstərib. Bu yolda atan da, baban da başlarını veriblər. Deməli, bu səltənətdə sənin də haqqın var. Nəyə nail olmusansa halalın olsun. Uzun Həsənin varislərindən sən də, qardaşların da böyük zülümlər görüblər. Böyük qardaşın da bu yolda həlak olub. Sənin böyük qardaşını - Sultan Əlini onların kini, qəzəbi məhv eləyib. Bütün bunlar sənə yaxşı məlumdur.***



***Hüseynbala MİRƏLƏMOV***

Bu vaxt ona xəbər vedilər ki, üç min nəfərlik bir qoşun dəstəsi Qızılbaşlara tərəf irəliləyir. Şah Qızılbaş əmirlərini təcili toplayıb gələn qoşunun kimlərin qüvvəsi olduğunu öyrənməyi tapşırdı. Döyüş olacağı tədqirdə kimin hansı tərəfdən necə hərəkət edəcəyini də qərarlaşdırdı.

Hüseyin Lələ bəy kəşfiyyata göndərilənlərin gətirəcəyi cavabdan asılı olmayaraq qoşunda təşviş yaranmasın deyə qənaətlərini şaha və digər əmirlərə də bildirdi:

- Başımız sənə qurban olsun, mürşidim. Qızılbaşların şöhrəti, döyüş şücaətləri hər kəsə yaxşı məlumdur. Hansı ağıllı sərkərdə cəsarət edib üç min nəfərlik cüzi bir qüvvə ilə bizim üstümüzə gələ bilər.

- Bəs onda sənin fikrincə, bu qüvvə kimindir və məqsədi nədir?

Şah Hüseyn Lələ bəydən soruşsa da üzünü bütün əmirlərə tutmuşdu. Əslində, onların da fikrini bilmək istəyirdi. Yaşına görə hər kəsdən böyük olan Məhəmməd xan Ustaclı özünə xas olan təmkinlə başını tərpətdi - yəni Hüseyn Lələ bəylə razı olduğunu bildirdi.

- Doğrudur, şahım, tezliklə bilərik. Düşünürəm ki, bu, xeyirliyədir.- Hər halda siz müvafiq hazırlıq tədbirlərini görün. Ehtiyatlı olmaq hər kəsi görünməz bəladan Allahın əli kimi qoruyar.

* * *

- Həqiqətən Mənsur bəy qalada Şeyx Heydərin ailəsini neçə il mühafizə elədi. Ağqoyunlu hakimlərinin göndərdiyi casuslar dəfələrlə ailəyə qəsd etmək istəsələr də Mənsur bəy buna yol verməmiş, Şeyx Heydərin balalarını öz doğmaları kimi bəlalardan hifz etməyi özünə borc bilmişdi.

...Mənsur bəy atdan düşdü. Yaşına uyuşmayan bir cəldliklə atdan yerə sıçrayandan sonra sanki İsmayıla tərəf yüyürdü. Doğrudur, İlyas bəy Halvaçıoğlu irəli yeriyib onun qarşısını kəsdi. Üst-başını yoxlayıb tamam tərksilah etdi. Hətta belindəki nisbətən nəzərə çarpmayan xəncərini də götürdü. İsmayıl da qalxıb irəli yeridi.

- İlyas bəy, bu, Mənsur bəydir, burax gəlsin.

Mənsur bəy uzun illərdən bəri öz övladından ayrılmış ata kimi İsmayılı bağrına basdı, onun üz-gözünü, əllərini düz kimi yaladı, öpdü, oxşadı.

- Sənə qurban olum, mürşidimin balası, mənim mürşidim, mən illərdir sənin yolunu gözləyirəm. Gəldiyin yollara qurban olum. Bu havayı tökülən qanların qarşısını al. Sən bizim xilaskarımızsan. -Mənsur bəy özünü saxlaya bilməyib gözlərindən yaş axıdırdı.

Şah əlini uzadıb onun gözlərindən axıb, yanaqlarından süzülən yaşı sildi.

- Yaxşı, daha hər şey keçmişdə qaldı. Ağlamaq niyə? - Hərçəndki, şahın özü də kövrəlmişdi. Baxmayraq ki, o, Mənsur bəyə təskinlik verirdi.

- Bəs neçə vaxtdır hardasan, Mənsur bəy, mən səni hər vaxt xatırlayırdım. Səninlə görüşü səbirsizliklə gözləyirdim.

- Sənə qurban olum, mürşidim, mənim ailəm Sultan Muradın girovudur. O, üç min nəfərlik qoşunla Şirazın sərhədlərini qorumağı mənə tapşırıb. Öz qoşunuma hər şeyi anlatmışam. Bu üç min nəfərlik qoşun indi sənin ixtiyarındadır.

- Sağ ol, Mənsur bəy, keçmişdə olan xidmətlərini də unutmamışam. Tezliklə hər şey bitər, sən də öz haqqına çatarsan.

Ancaq Mənsur bəy dinmədi, başını aşağı salıb sakit dayandı.

Şah İsmayıl gördü ki, o, sözlü adama oxşayır. Nə isə demək istəyir, deyə bilmir: - Bəlkə, bir sözün var, demək istəyirsən, deyə bilmirsən? Heç nədən çəkinmə, de.

Şahın dalbadal təkidli sualları Mənsur bəyi cəsarətə gətirdi.

- Doğrudur, şah, mənim dərdim var.

- De, Mənsur bəy, bəlkə, əlac edərik.

- Bilirəm ki, çətindir.

- Qızılbaş qoşununun əlində heç nə çətin olmaz, de.

- Allah bilən məsləhətdir, ancaq onu deyim ki, mənim buraya gəldiyimi eşidən kimi Sultan Murad Şirazdakı ailəmi məhv edəcək. Evimi, sarayımı dağıdacaq.

# ÇALDIRANA GEDƏN YOL

## *romandan səhifələr*

*(Əvvəli ötən saylarımızda)*

Məryəm xanım danışdıqca Şah İsmayılın xəyalına artıq keçmişdə qalmış əzablı günlər gəldi. Qardaşının ölümü ilə bağlı hadisəni də xəyalından ağrı ilə keçirdi. Ancaq heç nə demədi. Sadəcə sükutun uzanmaması üçün və xalasının öz sözünü sıxılmadan deyə bilməsi üçün mülayimcəsinə onun sözünün üstünü gətirdi:

-Doğru deyirsən, Məryəm xala, indi bunların hamısı keçmişdə qalıb.

Məryəm xanım anladı ki, indi sözünün canını deyə bilər:

-Mən istəyirəm ki, Sultan Muraddan qeyri Ağqoyunlu nəsilindən olanları Sultan Muradın xəyanətinə görə qəzəbinə qurban verməyəsən. Çünki, günahsız insanların qanını tökməyi Allah da bağışlamır.

Şah xalasının xahişini yerinə yetirəcəyini təsdiqləmək əlaməti olaraq başını razılıqla tərpətdi. Amma gördü ki, Məryəm xanım ondan dəqiq və aydın cavab istəyir.

- Yaxşı, Məryəm xala, son ana qədər sənin xahişini nəzərə alacağam sən də öz adından Ağqoyunlu nəslindən olan cavanların hər birinə xəbər göndər ki, savaşa qarışmasın.

Məryəm xanım da buna sevincək razı oldu:

- Yaxşı, mən elə günü bu gün çaparları müvafiq adamların yanına göndərərəm.

...Şah ağ atının belində Şiraza yaxınlaşdıqca xalası ilə olan söhbəti təzədən xəyalından keçirirdi. O həqiqətən istəyirdi ki, kaş hadisələr istəyincə baş verəydi, günahsız insanlar da qırğına düşməyəydi.

Aradan çox da vaxt keçməmişdi. Çaparların əhatəsində orta yaşını keçirməkdə olan bir şəxs düz Şah İsmayılın iqamətgahı olan tərəfə çapırdı. Yaxınlaşanda onun gülər üzü, sevincək halı hər kəsi az-çox qalan təşvişdən də qurtardı. Digər əmirlərdən fərqli olaraq şahın nəzərləri gələn şəxsin üzündə idi. Elə bil ki, onu haradasa görmüşdü. Çox yaxın, doğma hisslərlə xəyalından müxtəlif əhvalatları sürətlə keçirdi. Şah birdən nəsə yadına düşmüş kimi yerindən dik qalxdı: - Hə, bu, odur, - xəyalında qənaətini yekunlaşdırdı. Bəli, bu, qalabəyi Mənsur bəy idi - İstəxr qalasında anası ilə birgə qardaşlarını əsirlikdə saxlayan Mənsur bəy. Ağqoyunlu hakimlərinin əmrilə Şeyx Heydərin ailəsini neçə il qalada əsirlikdə saxlamışdı. Doğrudur, Ağqoyunlu hakimlərinin əmrini yerinə yetirirdi. Ancaq həm də Şeyx Heydərin ailəsini hər hansı gözəgörünməz xain əldən də qoruyurdu. Hətta çox vaxt İsmayılı qalada özü ilə gəzdirir, qucağına alıb oxşayır, boynuna mindirirdi. Və ona elə qəribə sözlər deyirdi ki, həmin sözlər indi də birər-birər şahın xəyalında canlanırdı.

- Hə, İsmayıl, indi sən böyümüsən.

- Mən hamıdan böyüyəmmi, əmi?

- Bəli, bəli, indi fikir ver, sən hamıdan ucadasan.

- Heç kimin mənə əli çatmaz ki?

- Əlbəttə, çatmaz.

İsmayıl da Mənsur bəyin bu xoş sözlərindən sevinər, qürurlanardı.

Şah fikrə getdi. Ümumi qoşunla Şiraza qədər getmək xeyli vaxt aparacaqdı. Çevik suvari alayı tez özünü Şiraza yetirsə, Mənsur bəyin ailəsini də xilas etmək mümkün olar. Sonra şah bir-bir bütün əmirləri nəzərdən keçirdi. Bu vaxt şahın qardaşı İbrahim Mirzə irəli yeridi:

- Şah izin versə, Mənsur bəyin özü ilə birgə onun ailəsini xilas etməyə mən gedərəm.

Şah əlini qaldırıb onu dayandırdı: - Yox, İbrahim Mirzə, sən tezliklə Təbrizə gedəcəksən.

- Təbrizə nə üçün, biz Şiraza getmirik?

- Dayan, bunun vaxtı deyil, vaxtı gələndə deyərəm.

Şah irəli yeriməyə hazır dayanmış Halvaçı oğlu İlyasa nəzər yetirdi. Halvaçıoğlu elə bunu gözləyirmiş kimi iki addım qabağa atıb şaha təzim elədi:

- Bəli, şah, mənim atlılarım belə çevik döyüşdə təcrübəlidir. Mən özümü tezliklə Şiraza çatdıra bilərəm.

Şah əli ilə Şiraz tərəfi göstərdi:

- Uğur olsun, Halvaçıoğlu İlyas. Özün ilə min nəfərlik dəstə görür.

Baş üstə, şah, - dedi. Sonra da Halvaçıoğlu bir göz qırpımında əmirlərin arasından çıxdı.

Şah Mənsur bəyə də onunla getməyi işarə elədi. Hələ onlar gözdən itməmiş hündürdən qışqırdı:

- Uğur olsun, Mənsur bəy. Gümanlıyam ki, tezliklə xilas olmuş ailənlə görüşərsən.

Daha Mənsur bəy heç bir cavab vermədi. Ancaq əlini qaldırmaqla özünü atına yetirdi.

***(Davamı var)***